# Şagirdlərdə ünsiyyət bacarığının inkişaf etdirilməsində ədəbiyyatın tədrisinin rolu

**Xatirə Süleyman qızı Xəlilova**
*fəlsəfə doktoru proqramı üzrə doktorant,*
*Azərbaycan Respublikasının Təhsil İnstitutu*
**E-mail:** xatire82@gmail.com

**Rəyçilər:** p.ü.e.d., prof. P.B. Əliyev,
p.ü.f.d., dos. M.S. Kazımov

**Açar sözlər:** ünsiyyət bacarığı, şifahi nitq, yazılı nitq, özünütəqdimat, nitq fəaliyyəti, nitq situasiyası

**Ключевые слова:** коммуникативная способность, устная речь, письменная речь, самопрезентация, речевая деятельность, речевая ситуация

**Key words:** communication skills, oral speech, written speech, self-presentation, speech activity, speech situation

Müxtəlif sosial şəbəkələrin həyatımızın bir parçasına çevrilməsi ilə güclü informasiya axını, qloballaşma və modernləşmə getdikcə daha müxtəlif və bir-biri ilə əlaqəli dünya yaradır. Beləliklə, bu gün İnternet şəklində ünsiyyətdə geniş bir inqilab yaşayırıq. Bu, dünya əhalisinin əhəmiyyətli bir hissəsi üçün əlçatan ilk qlobal, interaktiv, sosial, ünsiyyət mühitidir. Fikirlər, görüntülər və səslər bütün dünyada işıq sürəti ilə ünsiyyət qurur.

Bu dünyada mənalı və yaxşı yaşamaq üçün, dəyişən texnologiyaların iş mexanizmini bilmək və çoxlu miqdarda mövcud məlumatın mənimsənilməsi üçün insanlar daim inteqrasiya etməlidirlər. Bu kontekstlərdə fərdlərin öz məqsədlərinə çatması üçün lazım olan səriştələri daha da mürəkkəbləşmədən, kiçik yaşlarından yiyələnməyə başlaması daha məqsədəuyğundur. Öz yerini tutmaq və arzuolunan bir mövqedə olmaq üçün hökmən müasir dövrün tələblərinə cavab verən yeni və dəyişən bacarıqlara yiyələnməlisən. Çünki, cəmiyyət dəyişir və daha fərqli insanlararası münasibətlər yaranır. Buna görə də özündən fərqli olanlarla ünsiyyətdə olmaq ehtiyacı yaranır. Fərdlər dəyişiklik, mürəkkəblik və qarşılıqlı asılılıq ilə xarakterizə olunan bir dünyaya uyğunlaşmağa imkan verən səriştələrə yiyələnməlidirlər.

Araşdırmalar sübut edir ki, dövrümüzün on əsas bacarığından beşi insanlarla ünsiyyət qurmaq, danışıqlar aparmaq və onları idarə etmək, onları başa düşmək və onlara xidmət etməkdir (bu insan resurslarının idarə edilməsi, insanlarla qarşılıqlı əlaqə, danışıqlar, müştəri diqqəti, emosional zəkadır).

Kollektiv məqsədlərin həyata keçirilməsinə kömək etmək üçün müəyyən səriştələr tələb olunur. Beləliklə, bacarıq çərçivəsi ümumi dəyərlərdə belə dəyərlərə söykənir. Bəzən əsas səriştələrin milli dəyərlərə söykənməsi ümumi işin ziyanına olur. Bu zaman ortaq dəyərlərin seçilməsi və qiymətləndirilməsi daha yaxşı nəticə verir, davamlı inkişafı təmin edir. Bu dəyərlər həm fərdlərin potensiallarına çatmağı, həm də başqalarına hörmət etmələrini və ədalətli bir cəmiyyət yaratmasına töhfə vermələrini ifadə edir. Fərdi və kollektiv hədəflərin bir-birini tamamlaması, hər iki tərəfin inkişafını və digərləri ilə qarşılıqlı əlaqələrini təsdiq edən kompotensiyalar çərçivəsində əks olunmalıdır.

Bir səriştə bilik və bacarıqdan daha çoxdur. Bu, müəyyən bir kontekstdə psixososial resursları (bacarıq və münasibətləri daxil olmaqla) cəlb etmək və səfərbər etməklə kompleks tə-

lələrə cavab verməyi əhatə edir. Məsələn, səmərəli ünsiyyət qurmaq bacarığı bir insanın dil, çoxtərəfli dünyagörüşü, praktik İT bacarıqlarını və ünsiyyət qurduğu şəxslərə münasibətini əsas götürə biləcək bir səriştədir.

İndiki dövrün mürəkkəb çətinliklərinin öhdəsindən gəlmək üçün fərdlərin geniş bacarıqlara ehtiyacı var, biz davamlı inkişafımız və sosial birliyimiz cəmiyyətimizin bilik və bacarıqlarından asılıdır. Biz bilik və bacarıqlar sayəsində dünya ilə münasibətlərimizi inkişaf etdirə və dəyərlərimizi qoruya bilərik. Bunun üçün biz çox şaxəli və çox variantlı üsulları tətbiq etməliyik. Hansı istiqamətin daha uğurlu olduğuna əmin olduqdan sonra onu dominant kimi götürməliyik. Həm də elə üsullar seçilməlidir ki, onlar elastik olsun, dəyişməyə və uyğunlaşmaya meyilli olsunlar.

Bu günün ən vacib və əhəmiyyətli bacarıqlarından biri ünsiyyət qura bilmək bacarığıdır. Hamı ilə rahat ünsiyyətə girə bilmək üçün müəyyən bilik və bacarıqlar formalaşdırılmalıdır. Sözsüz ki, yaxşı ünsiyyətin qurulması üçün geniş dünyagörüşü lazımdır. Ünsiyyətin verbal və qeyri-verbal formalarından bacarıqla istifadə edə bilən şəxslər digər çətinlikləri də rahatlıqla aşa bilər.

Bilirik ki, bacarıqların başında düşünmə bacarığı dayanır. Söhbət təkcə insanların necə düşündüyündə deyil, həm də düşüncələri, hissləri və ictimai münasibətləri necə qurmalarındadır. Bu, fərdlərin sosial təzyiqlərdən uzaqlaşmalarına, fərqli düşüncələrə qapılmalarına, müstəqil qərarlar qəbul etmələrinə və hərəkətlərinə görə məsuliyyət daşımalarına imkan verən bir ictimai yetkinlik səviyyəsinə çatmasını tələb edir. Bütün düşüncələrini insan ünsiyyət vasitəsilə çatdırır. Deməli, ünsiyyət bacarığı da düşünmək bacarığı qədər vacibdir. Əslində bu bacarıqların biri digərinin davamıdır. Ünsiyyət qurmaqda çətinliyi olan şəxslərin cəmiyyətdə tuta biləcəyi mövqe bir mənalı deyil. Bəs düzgün ünsiyyət necə formalaşır? Ünsiyyətin formalaşmasında hansı işlərin görülməsi vacibdir?

Ünsiyyət bütün digər ictimai bacarıqların önündə durur. Odur ki dərsdə rabitəli nitqin inkişafı digər ictimai bacarıqların da formalaşmasına müsbət təsir edir. Müəllim dərs boyu şagirdlərin qarşılıqlı münasibətlərini, yaranmış vəziyyətdə onların birinin digərinə reaksiyasını müşahidə edir, ictimai bacarıq və vərdişlərinin inkişafına xidmət edir.

Ünsiyyət bacarığı əsas bacarığımızdır. İnsanı sosiallaşdıran başlıca amil ünsiyyətdir. Ünsiyyətlə özünü ifadə etməyə, aktuallaşdırmağa çalışır. Bəs görəsən biz bu bacarığa necə və hansı yollarla yiyələnə bilirik? Ümumən bu gün ünsiyyət qurmaq bacarıqlarımız inkişafdadırmı?

Danışmaq, dinləmək, yazmaq və oxumaq, yəqin ki, insanların birgə fəaliyyətini təmin edən və onlara böyük bir məlumat ehtiyatı toplamağa və ötürməyə imkan verən ən vacib bacarıqlardır.

Ünsiyyət nitq vasitəsilə baş verir. Biz başqalarını dinləyir, onların yazdığını oxuyur, öz fikirlərimizi yazmaq və danışmaqla ifadə edirik. Beləliklə, ünsiyyət zamanı dörd nitq bacarığından istifadə edirik: dinləmə, danışma, oxu, yazı (5).

Ümumtəhsil məktəblərində ünsiyyət bacarığının formalaşdırılmasında ədəbiyyat fənni əsas rolu oynayır. Ümumtəhsil məktəblərində ədəbiyyat təliminin məqsədi bədii ədəbiyyat nümunələrini, tarixi-ədəbi prosesi öyrənmək, təhlil etmək, qiymətləndirmək bacarığını formalaşdırmaqla şagirdlərin dünyagörüşünü zənginləşdirmək, mənəvi-estetik inkişafını təmin etmək, nitq mədəniyyətinə yiyələnməklərinə nail olmaqdır (6, s. 150).

Bu günki ədəbiyyat fənninin qarısında qoyulan əsas hədəflərdən biri də düzgün nitqi formalaşdırmaqdır. Ədəbiyyat fənn kurikulumu da hazırlanarkən bu prinsipə əsaslanmışdır.

Ədəbi əsərlərin öyrədilməsi zamanı şagirdlərin şifahi və yazılı nitqi tədricən cilalanır. Şagirdlər ana dilimizdə yazılmış əsərlərdə dilin gözəlliyini, dərin fikir və ifadə zənginliyini görüb-

götürür. Təlim prosesində sənətkarın sözdən istifadə məharəti, nitqin bədiiliyi, ifadəliliyi, obrazlı sözün doğurduğu emosionallıq və fikir tutumu haqqında aydın təsəvvür yaradılır, bu əsasda şagirdlərin özünün nitqinin zənginləşməsi təmin edilir (2, s. 7).

Ədəbiyyat fənn kurikulumunun iki məzmun xətti (Şifahi nitq, Yazılı nitq) məhz bu bacarıqların formalaşdırılmasına xidmət edir.

"Ədəbiyyat" fənn proqramı (kurikulumu) əsasında dərslik planlaşdırılarkən şifahi və yazılı nitq bacarıqları baxımından inkişafyönlülüyün gözlənilməsini yoxlamaq məqsədilə ibtidai təhsil səviyyəsində tədris olunan "Ana dili" fənn proqramı (kurikulumu) araşdırılmışdır. Müəyyən edilmişdir ki, mətnlərin funksional məna növlərinə dair ilkin bilik və bacarıqların təlimi birinci sinifdən dördüncü sinfə qədər məzmun standartlarında sistemli şəkildə öz əksini tapmışdır. Beşinci siniflərdə təhsil alan şagirdlər yeni fənn kurikulumları üzrə ibtidai təhsil səviyyəsini başa vurmuş, yəni bu məsələləri ibtidai səviyyədə mənimsəmişdir (1, s. 12).

Şəxsiyyətin formalaşması və özünütəsdiqində ünsiyyətin rolu kifayət qədərdir. Çox gözəl, təsirli və aydın danışmaq şəxsiyyətin daxili zənginliyindən xəbər verir. İnsanda nitqi formalaşdıran isə birbaşa ədəbiyyat fənnidir. Nitqin formalaşdırılması ünsiyyət prosesində baş verirsə bu daha yaxşı nəticənin əldə olunmasına səbəb olur.

İnsan nitqinin intensiv, səmərəli inkişafı ədəbiyyatın öyrənilməsi prosesində baş verir (4, s. 88 ).

Bütün siniflər və bütün fənlərin tədrisi zamanı nitq inkişafı üzrə sistemli iş aparılmalıdır. Ədəbiyyat fənni isə aşağıdakı prinsipləri rəhbər tutmalı və daim nitqin inkişafına çalışmalıdır:

— Ədəbi əsərlərin ideyalarının şagird təxəyyülündə, zehnində, bədii-estetik inkişafında yeni cığırlar açdığı kimi həm də nitqini cilalamalıdır;

— Şagirdlərin şifahi və yazılı nitqi üzərində praktik iş aparılmalıdır;

— Nitq fəaliyyətinin inkişafı zamanı ədəbiyyatın incəsənətin bir növü kimi inteqrativliyi təmin olunmalıdır;

— Ədəbi əsərlərin tədrisi zamanı rəngarəng metodlardan istifadənin nitq formalarının inkişafına təsir etməlidir;

— Müxtəlif janrlı əsərlərin tədrisi zamanı düzgün nitq situasiyaları təqdim edilməli, jest və mimikalardan düzgün istifadə təmin olunmalıdır.

Ədəbiyyat fənninin məqsədəuyğun təlimi nəticəsində hər bir şagird həm yazılı həm də şifahi formada özünütəqdimatı bacarmalı, rahat ünsiyyətə girməyi, öz fikirlərini aydın şəkildə söyləməkdən çəkinməməlidir.

Əvvəldə də qeyd etdiyimiz kimi, bu gün ünsiyyət bacarığının zəif inkişaf etməsi bir sıra problemlər yaratmaqdadır. Ünsiyyət olmadan ən yaxşı nəticələrə nail olmaq inandırıcı deyil. Şagirdlərin sözə, söz sənətinə olan marağını artırmaq üçün sənət adamları, şair və yazıçıların dərsə dəvətini təşkil etmək, onların səs və videoyazılarını dinləmək müsbət nəticələr verə bilər. Cəmiyyətdə müsbət mövqe tutan, müəyyən sözə sahib olan şəxslər şagirdlərə müsbət nümunə ola bilər. Problemlər daha çox uşaq yaşlarında dinlənməməklə başlayır. Uşaq ilk fikirlərini söyləyən zaman ona birmənalı olmayan münasibət uşağın qapanmasına, gələcəkdə fikir söyləməyə, münasibət bildirməyə çəkinməsinə səbəb olur. Məhz buna görə kiçik yaşlarında uşaqları susdurmaq olmaz. Onları dinləmək və dilləndirmək mütləqdir.

Məktəbəqədər uşaqlıq dövründə yaxşı inkişaf etdirilən ünsiyyət bacarıqları uşağın gələcək məktəb təhsili prosesinə uğurlu uyğunlaşmasını təmin edə bilər. Bir uşağın sosial və ünsiyyət bacarıqlarının inkişafı mürəkkəb bir prosesdir, bunun nəticəsində xarici dünya və insanlarla lazımi əlaqə qurmağı və saxlamağı öyrənir (3).

**Məqalənin aktuallığı.** Məqalədə toxunulan mövzu dövrümüzdə kifayət qədər aktualdır.

Araşdırılması və nəticələrin təhlil olunaraq tətbiq olunması vacibdir.

**Məqalənin elmi yeniliyi.** Məqalə elmi cəhətdən yeniliklərlə zəngindir, praktik əhəmiyyətə malikdir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən orta ümumtəhsil məktəblərində "Ədəbiyyat" fənnini tədris edən müəllimlər, magistrlər, doktorantlar və ədəbiyyatın tədrisi ilə məşğul olan hər kəs yararlana bilər.

## Ədəbiyyat

1. A. Süleymanova, T. Bağırova. Ümumtəhsil məktəblərinin VI sinfi üçün Ədəbiyyat fənni üzrə dərsliyin metodik vəsaiti. Bakı: Təhsil, 2017.
2. Azərbaycan Respublikasının Ümumtəhsil məktəbləri üçün ədəbiyyat fənni üzrə təhsil proqramı (kurikulumu) (V-XI siniflər). Bakı: Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutu, 2013.
3. Bookash.pro/ru/s/Коммуникативные+навыки/
4. İ. Pənahov. Ədəbiyyatın tədrisinin bəzi məsələləri. Bakı: Nurlar, 2004.
5. https://az.wikipedia.org/wiki/Ünsiyyət
6. Kurikulum islahatı: tədqiqatlar, nəticələr. Bakı: Mütərcim, 2011.

**Х.С. Халилова**

## Роль преподавания литературы в развития коммуникативных способностей учащихся

## Резюме

Исследования свидетельствуют что, пять из десяти основных способностей современности – это способность установления коммуникации с людьми, вести переговоры и управлять ими, понять их и служить им. Коммуникация стоит во главе всех других общественных способностей. А эффективную речь у человека формирует напрямую предмет литература. При изучении литературных произведений постепенно отшлифуется устная и письменная речь учащихся. Если формирование речи происходит в процессе общения, это приводит к достижению еще лучших результатов. В результате целесообразного преподавания предмета по литературе каждый учащийся должен уметь осуществить самопрезентацию как в письменной, так и в устной форме, свободно войти в общение, не испытывать затруднения ясно выражая свои мысли.

**Kh.S. Khalilova**

## Role of teaching literature in the development of pupils' communication skills

### Summary

The researches show that the five of the ten key skills of our time are to communicate with people, to negotiate and manage, to understand and service them. The communication stands before all other social skills. It is specially literature that forms the effective speech of human. Pupils' oral and written speeches are gradually polished while studying literary works. If the speech formation occurs in the communication process, it causes to get better result. At the result of the expedient teaching of literature, each pupil should be able to self-present, to freely communicate and to express their thoughts clearly.

**Redaksiyaya daxil olub:** 27.02.2020